# Murtuza Muxtarovun yadigarı

Tikili İçəri şəhərin Şirvanşahlar saray kompleksinin şərqə çıxan "Murad" qapısından aşağı əlverişli relyefdə ,çox böyük müvəffəqiyyətlə yerləşdirilərək "Bəy" məscidi adını aldı. Məscid təkcə qala divarları içərisində deyil, eləcə də Bakı forştadında yeni formasiyada tikilmiş ilk dini bina idi.

"Bəy" məscidinin eksteryerində mərkəzi ox üzərində yerləşmiş çoxguşəli gümbəzi və arxa cinahda yerləşdirilmiş şaquli minarəsi, onun üfüqi həcmi ilə mütənasib gözəl həcm-fəza kompozisiyası yaratmışdır. Məscidin tək minarəsi bir şərəfəli olmaqla, gövdəsi qabırğavari gümbəzciklə tamamlanır. Yerli əhəngdaşından məharətlə istifadə olunması, milli memarlıq ənənələrinə müraciət, məscidin traktovkasını onun yerləşdiyi mühitlə, eləcə də Şirvanşahların saray kompleksilə vəhdətdə yaxınlaşdırmışdır.

**İslam aləminin dünyaya bəxş etdiyi bənzərsiz abidələr sırasında memarlıq dəyərinə malik 3 məscidin tarixi neft milyonçusu Ağa Murtuza Muxtarovun adı ilə bağlıdır.**

**1895 -ci ildə M.Muxtarov yeni sosial-iqtisadi şəraitdə yeni tikinti texnikası və konstruksiyalarına əsasən kapitalist Bakısının memarlıq simasında özünün həcm-məkan kompozisiyasında Avropa, Şərq və yerli memarlıq - konstruktiv prinsiplərini cəmləşdirən məscid binasının tikilişinə izdivac verdi (2, səh 242).**

Professor M. Nemətin tədqiq etdiyi epiqrafiyaya əsasən söyləmək olar ki, "Bəy" məscidinin tikintisi Mirəli -ən -Nəki, Mir Təki, Seyid Hüseyn, kolliqrafları isə İbrahim Şirvani və Yəhyaya məxsusdur.

"Bəy" məscidinin qeyri-sabit relyefdə yerləşməklə, müxtəlif konfiqurasiyalı həcmlərin birləşməsindən yaranan plan quruluşu, iki yaruslu vestibüllə başlanaraq 3 nefli ibadət zalına keçir. İnteryer kompozisiyasını məscidin cənub divarında ovulmuş mehrab, Yunan order memarlığının elementlərindən olan sütunlar, ikinci yarusa qalxmaq üçün taxta pilləkan və oxvari pəncərələr tamamlayır.

Giriş, yerli memarlıq ənənələrinə sadiq olaraq yarım oval vaş tağla başlayaraq məscidin əzəmətini nəzərə çarpdırır. Giriş portalı Daş nəqqaşlığının yüksək səviyyədə dekorativ həlli nümunəsi olmaqla ornament motivlərini nəbati naxışlar təşkil edir. "Bəy" məscidi yükdaşıyıcı konstruksiyasına görə Bakının ilk nefli məscidi olmaqla, Abşeron əhəngdaşının gözəl nümunələrindəndir. O, İçəri şəhər strukturunda özünəməxsus yer tutmaqla yeni məhəllə mərkəzinin formalaşmasında əsas meyar olmuşdur.

M. Muxtarovun ikinci məscidi, Vətəndən xaricdə, Vladiqafqazda 1906-cı ildə inşa edilmişdir. Məscid mesenatın həyat yoldaşı, Rusiya ordusu generalı Tuqanovun qızı Liza xanımın şərəfinə ucaldılmışdır. Məscid Terek çayı saşilində yerləşməklə əsrarəngiz gözəllik yaratmış, yerləşdiyi sahənin memarlıq mühitinin formalaşmasında mühüm rol oynamışdır. Məscidin memarı İ. K. Ploşkodur. Daha sonralar, Sovet hakimiyyətinin 50-ci illərində Azərbaycanın görkəmli memarı Mikayıl Hüseynovun layihəsi ilə çayın digər sahilində tikilmiş mehmanxana binası bu yerlərin həcm-məkan mühitini tamamlamaqla osetin xalqına böyük hədiyyəsi olmuşdur.

Vladiqafqaz məscidinin memarlıq-fəza kompozisiyası müsəlman Şərqinə məxsus yastı dam örtüyündə iri həcmli gümbəzin və qoşa minarənin konstruktiv həlli ilə tamamlanmışdır.

Baş fasad birinci mərtəbədə portik, ikinci mərtəbədə eyvanla və yan sinahlarda qaldırılmış minarələrlə simmetrik həll edilmişdir. Giriş qapısının təntənəsini nəzərə çarpdırmaq məqsədi ilə memar eyvanın üstünü, birinci mərtəbədə pilyastırlarla başlanan dekorativ tağla tamamlamışdır. Ümumiyyətlə, məscidin baş fasadının həllində kaşı və şəbəkəylə işlənmiş zəngin dekordan istifadə olunmuşdur.

Vladiqafqaz məscidi, XIX-XX əsrlərdə Azərbaycan ərazisində müxtəlif regionlarda inşa edilmiş və eləcə də Qubanın Nügədi, Nuxanın Aşağı-Cümə məscidlərinin analoqu hesab olunmaqla iki mərtəbəli inşası ilə seçilir. Şaquli istiqamətlənmiş iki şərəfəli minarələr və onları tamamlayan soğanvari kiçik gümbəzciklər, silindrik barabana söykənən qabırğavari günbəzin böyük həcmi, düzbucaqlı pəncərələr, karnizüstü pilləvari merlonlar, digər dekorativ və konstruktiv formalar yerli memarlıq ənənələrinə istinadən həll edilməklə, dini tikilinin bədii simasının yaranmasında estetik funksiya daşıyırlar.

Böyük ölçülü, siluetli kompozisiyası, şəhərsalma sistemindəki yerinin müvəffəqiyyətli seçimi və iri həcm-məkan memarlığı ilə Vladiqafqaz məscidi müsbət təəssürat yaradır. Bütün bunlara əlavə olaraq Qafqaz sıra dağlarının və ətrafdakı rəngarəng landşaftın məscid üçün yaratdığı fon tikilisi, zəngin ponoramla nəticələnmişdir.

1908-ci ildə Murtuza Muxtarov Əmircan kəndinin mərkəzi hissəsində, üç əsas küçənin kəsişərək əmələ gətirdiyi kurdoner tipli meydançada silueti ilə ətraf kənd tikililəri içərisində dominantlıq edən qoşa minarəli məscid binasını öz həmkəndlilərinə hədiyyə etdi. Allaha yaxınlıq əlaməti olaraq məscid üçün kəndin ən hündür yeri seçilmişdi. Lakin relyefin o qədər də hündür olmaması və ətraf tikintilərin həcm-fəza tutumunun böyük miqyası, memarı məscid tikilisinin şaquli oxlarının hündürlüyünü artırmağa məcbur etdi. Belə ki, minarələrinin hündürlüyü 40-m-dən çox olan məscid, nəinki Abşeronda, eləcə də Azərbaycan və Qafqazda ən böyük məscid binası oldu (1, səh. 338). Həcm-fəza, memarlıq kompozisiyasında əsas konstruktiv elementlər- iri həcmli gümbəz və sanki Allaha doğru uzanmış qolları xatırladan iki şərəfəli, stalaktidli mütənasib balkonları ilə qoşa minarələr məscidin əzəmətini daha da artırdı.

"Muxtarov" məscidi kimi tanınan binanın tikinti işləri əvvəlcə yerli usta Kərbəlayı Əhmədə, sonralar isə Təzəpir məscidinin memarı olmuş və bu sahədə böyük təcrübəyə malik Zivər bəy Əhmədbəyova tapşırılır. İstedadlı memar Təzəpir məscidinin tikinti təcrübəsindən istifadə etməklə müxtəlif obrazlı Abşeronun memarlıq şedevrlərini yaradır.

Məscidin plan kompozisiyası vestibüllə başlayaraq, kvadrat şəkilli ibadət zalına keçir. İnteryerin tikinti konstruksiyasını, diametri 11,26 m olan gümbəzli barabanı saxlayan 4 oxvari tağ daşıyır. Məscidin mehrabı, ibadət zalı ilə qadınlar üçün qurulmuş apsida arasında yerləşir. İki mərtəbəli apsida öz növbəsində ibadət zalından taxta məhəccərlə ayrılaraq interyerin həcm-məkan kompozisiyasına bir genişlik gətirir.

M.Muxtarov Əmircandakı bu məscid binasını xalqına təhvil verdikdən sonra, məscidə çəkisi 25 kq olan və qızıl hərflərlə yazılmış Quran bağışlamışdır. Bu Quran uzun illər, məscidlərə qadağa qoyulduğu bir dövrdə xalq arasında qorunmuş və 1990-cı ildən sonra yenidən məscidə qaytarılmışdır.

Muxtarov məscidinin Əmircan kəndində tikilməsi, bu yaşayış məskəninin şəhərsalma strukturunda köhnə dini tikililərlə yanaşı, yeni kapitalist əsrində daha bir mərkəz düyünün əmələ gəlməsinə səbəb oldu.



M.Muxtarovun XIX əsrin sonu XX əsrin əvvəllərində inşa etdirdiyi 3 məscid tikilisi fərdi plan quruluşlarına və təkrarolunmaz memarlıq simasına malikdir. Məscidlərin tikilişində yerli tikinti materialından səmərəli istifadə olunmuşdur. Memar-ustaların yaradıcılıq uğurları. hər bir məscidin memarlıq traktovkasına- həcm, məkan, interyer və eksteryerin həllinə görə dövrünün kompozisiya mərkəzinə çevrilməsinə və yaşayış məhəlləsində istiqamətverici rolunu oynamasına səbəb olmuşdur.

Məscidlərin memarlıq kompozisiyasında hər üçünə xas olan şaquli aksentlərin nəzərə çarpdırılması, giriş portallarının və baş fasadların həllində dekorativ ornamentlərdən istifadə olunması ümumi xarakter daşıyır. Məscidlər özlərinin zəngin dekoru ilə seçilir. Hər üç abidənin memarlıq ənənələrinə əsasən konstruktiv elementlər - gümbəz və minarələr, oxvari tağlar, tağ-tavan sistemlərinin mütənasibliyi xarakterikdir. Məscidlər mərkəzi gümbəzli və üç nefli konstruksiyaya əsaslanır.



Məscid - 1906-cı il, Vladiqafkaz



Bəylər məscidi - 1895, İçərişəhər



M. Muxtarov məscidi - 1908, Əmircan

**Rahibə ƏLİYEVA,**
**memarlıq namizədi**

<u>Ədəbiyyat:</u>

1.Abşeron memarlığı. Ş. Fətullayev -Fiqarov. Bakı-2003.

2.Azərbaycan XIX-XX əsrin əvvəllərində şəhərsalma və memarlığı. Ş.Fətullayev. Leninqrad-1986.

3.Azərbaycan abidələrinin eniqrafik korpusu. M.S.Nemət. Bakı-1991.